# Azərbaycan və Kuba arasında fəal siyasi dialoq qurulub



**Rusiya Federasiyasının Soçi şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 8-də Kuba Respublikasının Baş naziri Manuel Marrero Krus ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında fəal siyasi dialoqun qurulduğu qeyd olunub, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və görüşlərin vacibliyi vurğulanıb.

Azərbaycanın və Kubanın beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığından məmnunluq ifadə olunub.

Hökumət başçıları iki ölkə arasında iqtisadi-ticari və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələlərini də müzakirə ediblər.

Azərbaycan. - 2023.- 9 iyun.- S.2.